**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 2023-cü ildə görülmüş işlərlə bağlı hesabat**

Rəsmi statistika məlumatlarının müasir tələblərə uyğun hazırlanmasını, milli statistika sisteminin inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayan Dövlət Statistika Komitəsi (bundan sonra - Komitə) 2023-cü ildə öz fəaliyyətini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılaraq təsdiq edilmiş Statistik işlər proqramı əsasında qurmuşdur. Bununla yanaşı, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamından, Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planından, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasından, 2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramından, Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramından, Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Tədbirlər Planından, "Çoxgöstəricili Klaster Sorğusunun (MICS) keçirilməsi ilə əlaqədar İstiqamətləndirici Komitənin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Sərəncamından, "2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarından, digər normativ hüquqi aktlardan, BMT Baş Assambleyasının qəbul etdiyi "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn vəzifələrin icrası, eləcə də dəqiq və dolğun statistik məlumatlara, davamlı informasiya dəstəyinə olan tələbatın ödənilməsi məqsədilə Komitə tərəfindən zəruri tədbirlər görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinin "Dövlət Nəzarəti İnformasiya Sistemi" vasitəsilə 2022-ci il üzrə qiymətləndirilməsinin nəticələrinə görə, Komitə mərkəzi icra hakimiyyəti orqanları arasında 2-ci mövqedə qərarlaşmışdır.

Milli statistika sisteminin müasir çağırışlara uyğun inkişaf etdirilməsini, inzibati məlumatlardan istifadəni genişləndirməklə ölkənin dayanıqlı inkişafı ilə bağlı statistik informasiya təminatının təkmilləşdirilməsini və bu hədəflərə çatmaq üçün statistika sahəsində maddi-texniki bazanın və kadr potensialının möhkəmləndirilməsini təmin etmək məqsədilə "2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı" üzrə 2023-cü il üçün nəzərdə tutulmuş 16 işin hamısı yerinə yetirilmiş, Komitənin digər dövlət proqramları üzrə icraçı kimi çıxış etdiyi tədbirlərin icrası təmin edilmişdir. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin "Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında" 2020-ci il 28 iyul tarixli, 1114 nömrəli Fərmanının icrası ilə əlaqədar aidiyyəti dövlət qurumlarından, hasilat sənayesində fəaliyyət göstərən müəssisələrdən məlumatlar toplanılmış, yoxlanılmış və həmin məlumatlar əsasında "Hasilat sənayesində şəffaflıq üzrə məcmu hesabat" adlı toplu hazırlanaraq "Hasilat Sənayesində Şəffaflıq" portalında yerləşdirilmişdir.

2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə əlaqədar Komitə tərəfindən "Heydər Əliyev 100. Bir Ömrün Əbədiyyəti" adlı statistik məcmuə nəşr etdirilmiş, ilk dəfə olaraq ölkədə yuxarı sinif şagirdləri və ali məktəb tələbələri arasında Statistik olimpiada keçirilmişdir. Olimpiadanın şəffaf, obyektiv və peşəkar səviyyədə təşkili və keçirilməsini təmin etmək məqsədilə Təşkilat komitəsi yaradılmış, qaydalar və tədbirlər planı təsdiq edilmiş, test tapşırıqları və nəticələrin real vaxt rejimində əldə edilməsi üçün elektron informasiya sistemi hazırlanmışdır. Üç mərhələdə keçirilmiş olimpiadada 3106 şagird və 203 tələbə iştirak etmiş, qaliblər mükafatlandırılmışlar. Bununla yanaşı, ölkədə həyata keçirilmiş

tədbirlər çərçivəsində Komitə aparatının və yerli statistika orqanlarının əməkdaşları idman yarışlarında iştirak etmiş, KİV-də və elmi jurnallarda Heydər Əliyev irsinə həsr olunmuş məqalələr nəşr etdirmiş, elm və mədəniyyət xadimlərinin, tanınmış ziyalıların iştirakı ilə tədbirlərdə, müxtəlif müsabiqə, sərgi, festival, konsert və tamaşalarda, ağacəkmə və abadlıq tədbirlərində iştirak etmişlər.

Rəsmi statistika müşahidələri və seçmə statistik müayinələr vasitəsilə əldə edilən məlumatların istehsalı davam etdirilmiş, ev təsərrüfatları arasında sorğu yolu ilə il ərzində müxtəlif mövzular üzrə 21 statistik müayinə keçirilmiş, əldə edilmiş məlumatlar icmallaşdırılaraq nəşr edilmiş, istifadəçilərə çatdırılmış və Komitənin internet səhifəsində yerləşdirilmişdir.

Milli hesablar sisteminin tələblərinə uyğun növbəti ehtiyat və istifadə cədvəllərinin qurulması məqsədilə 5 mindən çox müəssisə və təşkilatda xərclərin tərkibinin öyrənilməsinə dair seçmə statistik müayinə keçirilmiş, əldə edilmiş məlumatlar əsasında məhsul və xidmətlərin istehsalı və bölüşdürülməsinin sahələrarası balansı (xərclər-buraxılış cədvəlləri), həmçinin ehtiyat və istifadə cədvəlləri tərtib edilmiş, nəticələr nəşr olunmuş, istifadəçilərə çatdırılmış və Komitənin internet səhifəsində yerləşdirilmişdir. Tərtib edilmiş xərclər-buraxılış cədvəlləri milli hesablar sisteminin tərkib hissəsi olmaqla ölkə iqtisadiyyatının strukturunu, onun sahələri arasında əlaqələri, o cümlədən ümumi daxili məhsulun istehsalı və istifadəsinin strukturunu dərindən təhlil etməyə imkan verir.

Rəsmi statistikanın müasirləşdirilməsi istiqamətində Komitə tərəfindən aparılan islahatlar çərçivəsində qiymət statistikası sahəsində qeyri-ənənəvi məlumat mənbələrini hesablanma prosesinə inteqrasiya etməklə məlumatların toplanmasında innovativ yanaşmanın tətbiqi nəticəsində qiymət qeydiyyatçılarının üzərinə düşən yükün azaldığı nəzərə alınaraq, Bakı Şəhər Statistika İdarəsinin ştat strukturu təkmilləşdirilmişdir.

***Metodoloji iş.*** 2023-cü ildə Komitənin əsas fəaliyyət istiqamətlərindən biri metodoloji bazanın möhkəmləndirilməsi olmuş, BMT, Avrostat, BVF, İƏİT, BƏT və digər beynəlxalq təşkilatların metodologiyalarına uyğunlaşdırılmaqla, habelə yerli qanunvericilikdə baş vermiş dəyişikliklər nəzərə alınmaqla 72 metodoloji material hazırlanmış və ya onlara əlavə və dəyişikliklər edilmişdir. Statistika məlumatlarının keyfiyyətinin beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə statistik hesabat formalarının təkmilləşdirilməsi işi davam etdirilmiş, Komitənin elmi-metodoloji şurasının 2023-cü ildə keçirilmiş 11 iclasında 40 məsələ müzakirə olunmuşdur. Dövlət Statistika Komitəsinin təşəbbüsü və aidiyyəti dövlət qurumları ilə razılaşdırılmaqla il ərzində 3 yeni hesabat forması təsdiq edilmiş, 5 hesabat forması ləğv edilmiş, 48 formaya isə aktuallığını itirmiş göstəricilərin çıxarılması, tələbata uyğun yenilərinin əlavə edilməsi ilə yenidən baxılmışdır.

Milli statistik təsnifatlar sisteminin inkişafı sahəsində işlər davam etdirilmiş, “Bələdiyyələrin statistik ərazi təsnifatı”nın yeni layihəsi hazırlanmışdır.

“Azərbaycan Respublikasının ekoloji göstəricilər sistemi” hazırlanaraq Komitənin internet səhifəsində (https://www.stat.gov.az/menu/7/other_metadata/) yerləşdirilmişdir. “Ekoloji İnformasiyanın Birgə Sistemi - Avropa Qonşuluq və Əməkdaşlıq Layihəsi (ENI SEIS)” çərçivəsində Komitənin internet səhifəsində “Ekoloji İnformasiyanın Birgə Sisteminin baza göstəriciləri” adlı xüsusi bölmə yaradılmış, müvafiq göstəricilər üzrə dinamika sıraları tərtib olunaraq bölmədə yerləşdirilmiş, bununla da Komitənin internet səhifəsindən Avropa Ətraf Mühit Agentliyinin (EEA) internet səhifəsində yaradılmış ENI SEIS II East bölməsinə keçid etməklə layihədə iştirak edən 6 ölkə üzrə məlumatların əldə edilməsi xeyli asanlaşmışdır.

DİM göstəriciləri üzrə metaməlumatların beynəlxalq Avro-SDMX Metaməlumatlar (ESMS 2.0 versiyası) strukturuna uyğun formatda hazırlanması işi davam etdirilmiş və 32 göstərici üzrə metaməlumatlar hazırlanaraq DİM üzrə Milli Məlumatlandırma Portalında yerləşdirilmişdir. Bununla da, yayımı həyata keçirilən DİM göstəricilərinin 92,6 faizi üzrə müvafiq struktura uyğun metaməlumatların hazırlanması təmin olunmuşdur.

Rəqəmsal inkişaf sahəsində yeni statistik göstəricilərə olan ehtiyacların müəyyənləşdirilməsi və məlumatların əldə edilməsi məqsədilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) ilə birgə rəqəmsal inkişaf statistikası üzrə beynəlxalq təcrübə, o cümlədən Beynəlxalq Telekommunikasiya İttifaqının standartları öyrənilərək statistik göstəricilər sistemi və metodologiya hazırlanmışdır. Əldə edilmiş məlumatlar əsasında RİNN-lə birgə “Azərbaycanda Rəqəmsal İnkişaf. Faktlar. Təhlillər. Rəqəmlər” adlı nəşr hazırlanmışdır.

***Keyfiyyətin idarə olunması.*** İsveçrənin “SGS” şirkətinin yerli nümayəndəliyi tərəfindən Komitə aparatının struktur bölmələrində və keyfiyyəti idarəetmə sisteminin tətbiq edildiyi bir sıra yerli statistika orqanlarında keçirilmiş növbəti sertifikatlaşma auditinin nəticələrinə əsasən Komitənin aparatı və 45 yerli statistika orqanı “Rəsmi statistika məlumatlarının istehsalı və yayılması” sahəsində ISO 9001:2015 beynəlxalq uyğunluq sertifikatına layiq görülmüşdür. “Audit proqramı”na və Keyfiyyəti İdarəetmə Sisteminin tələblərinə uyğun olaraq struktur bölmələrdə və yerli statistika orqanlarında daxili auditlər, eləcə də yoxlama və nəzarət auditləri keçirilmiş, müəyyən edilmiş uyğunsuzluqların aradan qaldırılması üçün zəruri tədbirlər görülmüşdür. Keyfiyyəti idarəetmə sisteminin əhatə dairəsinin genişləndirilməsi istiqamətində müvafiq işlər görülərək daha 6 yerli statistika orqanında keyfiyyət sahəsində məqsədlər, proseslərin idarə olunması standartları və proseslərin xəritələri, həmçinin lazımi sənədləşdirilmiş prosedurlar hazırlanaraq təsdiq edilmişdir. Sahibkarların statistika orqanları ilə münasibətlərində qarşılaşdıqları problemlərin öyrənilməsi və həlli məqsədilə Komitənin veb-səhifəsində hər rüb “Sahibkarlar üçün 7 sual” rəy sorğusu keçirilmiş, verilmiş təkliflərin gələcəkdə nəzərə alınması üçün cavablar ümumiləşdirilərək təhlil edilmişdir.

***Məlumat bazalarının inteqrasiyası***. Dövlət qurumlarının məlumat bazalarının Komitənin statistik məlumat bazasına “Elektron Hökumət İnformasiya Sistemi” vasitəsilə inteqrasiyasına dair Əmək və Əhalinin Sosial Müdafiəsi, Ədliyyə, Elm və Təhsil nazirlikləri və Dövlət Miqrasiya Xidməti ilə imzalanmış razılaşmalar əsasında aidiyyəti məlumatların Komitənin statistik məlumat bazasına ötürülməsi prosesi çərçivəsində zəruri tədbirlər həyata keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin məlumat bazasının Komitənin statistik məlumat bazasına inteqrasiyası tam başa çatmış və nəticədə dövlət qulluqçuları barədə dövlət orqanları tərəfindən təqdim olunan 365 göstəricidən 197-si (54,0%) üzrə məlumatların onlardan tələb edilmədən birbaşa inzibati mənbədən əldə olunması təmin olunmuşdur.

***E-statistika***. Statistika məlumatlarının toplanmasında, emalında və yayımlanmasında istifadə olunan informasiya texnologiyalarının tətbiqi imkanlarının genişləndirilməsi, statistik informasiya sisteminin inkişaf etdirilməsi sahəsində işlər davam etdirilmiş, respondentlərin yerli statistika orqanlarına gəlmədən hesabat məlumatlarını elektron formada təqdim etmələri üçün həyata keçirilmiş tədbirlər nəticəsində rəsmi statistika hesabatlarının onlayn rejimdə elektron formada qəbulu 97,0 faizi ötmüş, statistik hesabatları elektron formada internet vasitəsilə təqdim etmək üçün il ərzində 5,6 milyon müraciət daxil olmuş, bununla da vətəndaş-məmur təmaslarının səviyyəsi minimuma endirilmiş, eyni zamanda statistik məlumatların işlənməsi və təhlili imkanları yüksəlmişdir.

Komitə tərəfindən göstərilən elektron xidmətlərin "Elektron hökumət" portalı vasitəsilə təqdim edilməsi ilə bağlı vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin həyata keçirilməsi məqsədilə Komitənin internet səhifəsinin "E-xidmətlər" bölməsində bu xidmətlər haqqında ətraflı məlumatlar yerləşdirilmiş, "Facebook", "Youtube", "Tvitter" və "İnstagram" sosial şəbəkələrində Komitənin səhifəsinin aktiv fəaliyyəti təmin edilmişdir. Həmçinin internet səhifənin mobil versiyasının mütəmadi olaraq təkmilləşdirilməsi və statistik məlumatların vaxtlı-vaxtında yenilənməsi davam etdirilmişdir.

Mobil texnologiyalar vasitəsilə göstərilən xidmətlərlə əlaqədar tətbiq olunan proqramların funksionallığının genişləndirilməsi məqsədilə "Statistik məlumatların (göstəricilərin) verilməsi" və "Statistik nəşrlərin (kitabların) onlayn satışı" elektron xidmətlərinin, eləcə də "Elektron müraciət" bölməsinin verdiyi imkanlardan daha geniş istifadə edilməsi üçün müvafiq səhifələr "İOS" və "Android" platformasında müxtəlif ekran görünüşlərinə uyğun hazırlanaraq istifadəçilərə təqdim edilmişdir.

"Sahibkarlıq subyektinə ölçüsünə görə aid olduğu kateqoriyaya dair elektron arayışın verilməsi" elektron xidməti təkmilləşdirilərək arayışın sənəd nömrəsinin yenilənməsi, məlumat bazasında sahibkarın hesabatlılığı ilə bağlı vəziyyətin yoxlanılması kimi işlər yerinə yetirilmiş, sahibkarlara təqdim edilən arayışın orijinallığını təsdiq edən QR kod tətbiq edilmiş, elektron xidmətdən istifadə edən istifadəçilər üçün video-təlimat hazırlanmış və saytın e-xidmətlər bölməsinə yerləşdirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən "Elektron Xidmətlərin Qiymətləndirilməsi" əsasında tərtib edilmiş reytinqdə Komitə 28 qurum (o cümlədən 24-ü mərkəzi icra hakimiyyəti orqanı) arasında 79,37% nəticə ilə 3-cü mövqedə qərarlaşmış - 4-ü interaktiv, 1-i isə informativ olmaqla istifadəçilərə göstərilən 5 xidmət növü ilə bağlı "ASAN xidmət indeksi" üzrə "Statistik nəşrlərin (kitabların) onlayn satışı" xidməti 5 balla (83,21%), "Statistik məlumatların buraxılış təqviminin və mətbu məlumatların yayım təqviminin təqdim edilməsi" xidməti 4 balla (82,39%), "Statistik məlumatların verilməsi qaydalarının pozulmasına görə inzibati cərimələrin internet vasitəsilə ödənilməsi" xidməti 4 balla (77,41%), "Rəsmi statistik hesabatların təqdim edilməsi" xidməti 4 balla (76,37%) və "Statistik məlumatların (göstəricilərin) verilməsi" xidməti 4 balla (71,86%) qiymətləndirilmişdir.

***Çoxgöstəricili Klaster Sorğusu.*** "Çoxgöstəricili Klaster Sorğusunun (MICS) keçirilməsi ilə əlaqədar İstiqamətləndirici Komitənin yaradılması haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli 526s nömrəli Sərəncamının icrası ilə bağlı işlər davam etdirilmişdir. Belə ki, İstiqamətləndirici Komitənin təsdiq etdiyi Tədbirlər Planına uyğun olaraq UNICEF-in Azərbaycandakı Nümayəndəliyi ilə birlikdə 6 adda sorğu anketinin CAPI versiyası hazırlanmış, sorğunu aparacaq işçi heyətlərinin formalaşdırılması üçün açıq müsabiqə keçirilmiş, müsabiqədə uğur qazanmış şəxslər üçün təlimlər təşkil olunmuş, əhalinin məlumatlandırılması məqsədilə sorğunun əhəmiyyətindən bəhs edən 2 videoçarx hazırlanmış, onların və MICS barədə digər məlumatların televiziya kanallarında, sosial mediada (youtube, facebook, instagram, tvitter) yayımlanması, habelə Bakı və Gəncə şəhərlərinin elektron monitorlarında nümayiş etdirilməsi təmin edilmiş, Dövlət Statistika Komitəsinin internet səhifəsində MICS-lə bağlı portal yaradılmış (https://azstat.org/MICS/) və ətraflı məlumatlar yerləşdirilmişdir. 2023-cü ilin may-avqust aylarında sorğu aparılmış, əldə edilmiş məlumatlar əsasında yekun cədvəllər hazırlanmaqdadır.

***Kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq.*** "2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi

haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 04 oktyabr tarixli 357 nömrəli Qərarı ilə yaradılmış İstiqamətləndirici Komitənin 15 dekabr tarixli iclasında siyahıyaalmaya hazırlıq işlərinin gedişi müzakirə edilmiş, qərarın icrası olaraq Dövlət Statistika Komitəsinin hazırladığı kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi üzrə təqvim planı, siyahıyaalma vərəqəsi forması və onun doldurulması qaydası təsdiq edilmişdir. Siyahıyaalma sənədləri hazırlanarkən FAO-nun tövsiyələri, milli xüsusiyyətlər, aidiyyəti dövlət qurumlarının, xarici ekspertin rəy və təklifləri nəzərə alınmışdır.

***Dayanıqlı İnkişaf Məqsədləri***. Dayanıqlı İnkişaf Məqsədləri (DİM) göstəriciləri üzrə statistik məlumat bazasının genişləndirilməsi istiqamətində işlər davam etdirilmiş, müvafiq dövlət qurumları ilə birgə əlavə olaraq 9 yeni göstərici üzrə məlumatların hazırlanmasına nail olunmuş və bununla da məlumat istehsalı təmin olunan DİM göstəricilərinin sayı 121-ə çatdırılmışdır ki, onlardan da 89-u milli prioritet kimi müəyyən edilmiş göstəricilərdir.

"Dayanıqlı İnkişaf Məqsədləri: statistik icmal-2023" məcmuəsi hazırlanaraq nəşr edilmiş, istifadəçilərə təqdim olunmuş, onun elektron versiyası Komitənin internet səhifəsində, həmçinin Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf Məqsədləri üzrə Milli Məlumatlandırma Portalında yerləşdirilmişdir.

2023-cü ilin 2 mart tarixində Bakıda keçirilmiş "Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə Görüşü"ndə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən irəli sürülmüş minatəmizləmənin 18-ci Dayanıqlı İnkişaf Məqsədi kimi təşviq edilməsi təşəbbüsü ilə bağlı Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının 2023-cü il 18 aprel tarixli qərarının icrası olaraq Komitə tərəfindən aidiyyəti qurumlarla birlikdə milli 18-ci Dayanıqlı İnkişaf Məqsədi ("Mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyətlər") üzrə 15 göstəriciyə dair metodologiya hazırlanmış, elmi-metodoloji şurada təsdiq edilmiş və məlumat istehsalına başlanılmışdır.

***Statistik məlumat istifadəçiləri ilə iş***. "2023-cü il üçün metodoloji və məlumat istifadəçiləri ilə iş planı"na uyğun olaraq statistik məlumat istifadəçilərinin (müxtəlif nazirlik, komitə, digər qurumlar, media nümayəndələri) iştirakı ilə məşğulluq və əməkhaqqı, dayanıqlı inkişaf və regionlar, energetika və ətraf mühit, kənd təsərrüfatı, milli hesablar, nəqliyyat, informasiya və rabitə, turizm, sosial müdafiə, sənaye və tikinti, ticarət statistikası məsələlərinə, "İstehlak qiymətləri indeksinin hesablanması", "Gender bərabərliyinə dair geniş və əhatəli statistik məlumatların əldə edilməsi", "Ev təsərrüfatı büdcələri tədqiqatının aktual məsələləri", "Komitənin internet səhifəsindəki yeniliklərlə bağlı istifadəçilərin məlumatlandırılması" və s. mövzulara həsr olunmuş seminar-görüşlər keçirilmişdir. Ümumilikdə, il ərzində Komitədə 170 istifadəçinin iştirakı ilə 13 görüş keçirilmişdir.

İl ərzində istifadəçilərdən Komitəyə daxil olan sorğular mütəmadi olaraq təhlil edilmiş, daha çox maraq doğuran göstəricilər müəyyənləşdirilmiş və nəşr edilən məlumatların istifadəçilərin sorğularına uyğunluğu təmin edilmişdir.

Komitənin veb-səhifəsi (www.stat.gov.az) istifadəçilərin maraqlarının təmin edilməsi baxımından müntəzəm olaraq təkmilləşdirilmiş və yenilənmiş, məlumat bazaları əsas sosial-iqtisadi göstəricilər üzrə çoxsaylı cədvəlləri, təhlil və metodoloji materialları əhatə etmişdir. 2023-cü ildə internet səhifəsinə 94,5 faizi ölkə ərazisindən, 5,5 faizi isə xarici ölkələrdən olmaqla hər gün orta hesabla 10,9 min istifadəçi daxil olmuşdur.

Veb-səhifədən istifadə olunması ilə bağlı vəziyyətin, məlumat istifadəçilərinə göstərilən xidmətlərin keyfiyyətinin, yayımlanan məlumatların dolğunluğunun və s. qiymətləndirilməsi məqsədilə il ərzində Komitənin internet səhifəsində onlayn rejimdə istifadəçilərin sorğusu keçirilmişdir. Kütləvi informasiya vasitələrinin və vətəndaş cəmiyyəti

institutlarının nümayəndələrinin də iştirak etdiyi bu sorğunun nəticələri ümumiləşdirilərək Komitənin veb-səhifəsində yerləşdirilmişdir.

Bakı Şəhər Statistika İdarəsinin veb-səhifəsi (http://www.baku.azstat.org) müasir tələblərə uyğun yenilənmiş, veb-səhifəyə məlumatların daxil edilməsi, eləcə də onun idarə olunması üçün admin-panel yaradılmış, xəbərlərin, məlumatların və şəkillərin admin-panel vasitəsilə veb-səhifədə yerləşdirilməsi təmin edilmiş, "Elektron müraciətlər" bölməsi təkmilləşdirilərək İdarəyə daha rahat formada elektron müraciət edilməsi imkanı yaradılmışdır.

Hakimiyyət orqanlarının və digər statistik məlumat istifadəçilərinin cari tələbatlarının ödənilməsi məqsədilə 2023-cü ildə müxtəlif mövzular üzrə 32 adda illik statistik məcmuə və digər nəşrlər çap etdirilmiş, 49 təhlili məruzə və 122 mətbu-məlumat hazırlanmışdır. Statistik məcmuə və bülletenlərin elektron versiyaları Komitənin veb-səhifəsində yerləşdirilmişdir. Yerli statistika orqanları tərəfindən də rayon və şəhərlər üzrə illik statistik məcmuələr nəşr edilmiş, 264 təhlili məruzə hazırlanmışdır.

***Beynəlxalq əməkdaşlıq***. 2023-cü ildə Komitənin fəaliyyətinin əsas istiqamətlərindən birini də beynəlxalq təşkilatlarla əməkdaşlıq təşkil etmişdir. BMT və onun təşkilatları, Avropa İttifaqı, BVF, Dünya Bankı, Asiya İnkişaf Bankı, İƏİT, İƏT, Avrostat, MDB Dövlətlərarası Statistika Komitəsi və bir sıra digər beynəlxalq təşkilatlarla, həmçinin dünya ölkələrinin milli statistika xidmətləri ilə əməkdaşlıq, eyni zamanda milli metodologiyaların beynəlxalq standartlara uyğunlaşdırılması, təcrübə mübadiləsinin aparılması, qabaqcıl təcrübələrin öyrənilməsi və tətbiqi, beynəlxalq məlumat portallarında Azərbaycan Respublikasına aid statistik məlumatların yoxlanılması, aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması istiqamətində beynəlxalq təşkilatlarla və onların Azərbaycandakı nümayəndəlikləri ilə işlər davam etdirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 11 fevral tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" çərçivəsində işlər davam etdirilmiş, koreyalı mütəxəssislərin Komitəyə səfərləri təşkil edilmiş, Gəncə Şəhər Statistika İdarəsində onların iştirakı ilə müasir informasiya texnologiyaları avadanlıqları ilə təchiz edilmiş 16 nəfərlik təlim otağı yaradılmışdır. Koreyada keçirilən təlimlərdə 38, Bakı şəhərində koreyalı mütəxəssislərin təşkil etdiyi təlimdə isə 46 əməkdaş iştirak etmişdir. 23 noyabr tarixində sözügedən memorandum çərçivəsində birgə həyata keçirilmiş "Azərbaycan Respublikasında yerli statistika orqanlarının potensialının gücləndirilməsi" layihəsinin başa çatması ilə əlaqədar yekun tədbir keçirilmişdir.

Komitənin 91 əməkdaşı müxtəlif beynəlxalq təşkilatlar və xarici ölkələrin milli statistika qurumları tərəfindən təşkil edilmiş 74 onlayn tədbirdə, 60 əməkdaşı isə əyani formada keçirilən 53 tədbirdə iştirak etmiş, həmçinin Komitənin mütəxəssisləri beynəlxalq ekspert və işçi qruplarının tərkibində fəaliyyətlərini davam etdirmişlər.